**UOT 379.85**

# AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİ VASİTƏLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ GENİŞLƏNDİRİLMƏSİ

**Ramil ŞAHHÜSEYNLİ** *

Məqalə redaksiyaya daxil olmuşdur: 24 may 2023; çapa qəbul edilmişdir: 9 iyun 2023; online-da çap edilmişdir: 30 iyun 2023.

Received: 24th of May, 2023; accepted: 9th of June, 2023; published online: 30th of June, 2023.

***Açar sözlər:*** *turizm, Azərbaycan, menecment, dövlət siyasəti, strateji yol xəritəsi*

## Giriş

Məqalədə Azərbaycanda turizmin inkişafı ilə bağlı dövlət siyasətinin və strateji yol xəritələrinin inkişafı təhlil edilir. Bu istiqamətdə beynəlxalq təcrübənin öyrənilməsi və müsbət tendensiyaların Azərbaycanda tətbiqi imkanları nəzərdən keçirilir. Azərbaycan Respublikasının torpaqlarında əlverişli turizm mühitinin yaradılması bizi daha qətiyyətli addımlar atmağa sövq edir. Gələcəyin çox parlaq görünməsi, hazırda görülən hazırlıq və tədbirlərin bizi bu nəticəyə gətirib çıxara bilməsi bu sahənin inkişafı üçün hansı vəsaitin lazım olduğunun öyrənilməsinin vacibliyini ortaya qoyur. Bütün bu amilləri, imkan və imkanları nəzərə alaraq, turizm sahəsində mühüm potensiala malik olan ölkəmizdə bu sahədə dövlət siyasəti alətlərinin təkmilləşdirilməsinə və genişləndirilməsinə böyük ehtiyac var.

Azərbaycanda son dövrlərdə bu sahə üzrə geniş tədbirlər görülmüş olsa da, bu tədbirlərin daha da artırılmasına ehtiyac davam edir. Ona görə ki, bu sahə təhsil proqramlarına böyük investisiya qoyuluşu və müasir dövrün tələblərinə uyğun özündə bir çox sahə üzrə bilik və bacarıqları cəmləşdirən ixtisaslı kadrların hazırlığını tələb edir. Xüsusilə son zamanlarda inkişaf tempinə görə sürətlilik nümayiş etdirən və bütün dünyada tez-tez özündən bəhs etdirən Azərbaycan Respublikası həm ictimai-siyasi sahələrdə olduğu kimi həmçinin turizm sahəsində də əhəmiyyətli irəliləyişlərə imza atmışdır. Bu inkişafın əsas təməlini təbii ki, ölkəmizdə turizmə yüksəliş istiqaməti və imkanları verən və dayanıqlılığını təmin edən Azərbaycan Respublikası qanunları, dövlət proqramları və strateji yol xəritələri olmuşdur. Bununla belə, işğaldan azad olunmuş torpaqlarımız gələcək turizmin böyük inkişafı üçün zəmin yaradan və üzərində düşünməli olduğumuz başlıca mövzulardan biridir. Çünki torpaqlarımızın düşmən tapdağından azad edilməsi prosesi belə bütün dünyanın diqqətini cəlb etməsinə səbəb olmuşkən, işğal dövrü və işğaldan azad olunduqdan sonrakı fərq isə insanların daha çox marağına səbəb olacaqdır.

## Turizm və turizmə təkan verən sahələrdə təhsilin inkişafı

Turizm təhsili turizm məkanının inkişaf etməkdə olan turizm sektorlarında peşəkar şəkildə işləyə biləcək insan resurslarının hazırlanması üsuludur. Bu anlayışı Johnsonun "peşəkarlığa təhsil vasitəsilə nail olmaq olar" yanaşması ilə qüvvətləndirərək, hər

* *magistrant, Azərbaycan Turizm və Menecment Universiteti*
*e-mail:* ramil.sahhuseynli@gmail.com

bir sahədə olduğu kimi, turizm sahəsinin də inkişafı onun təhsilinin keyfiyyətindən, qazandırdıqlarından birbaşa asılı olduğunu demək olar (5, s. 4). Turizm sahəsinin inkişafında maraqlı olan tələbələrin öz sahələrində peşəkar kadrlar kimi formalaşmasında başlıca üzərində durulası, təhlil olunası məsələ onlara tədris ediləcək fənlərin hansı metodlar ilə, hansı formada keçiriləcəyi və müasir dünyada bu dərsliklərin ehtiyaclara nə dərəcədə cavab verib-vermədiyidir. "Məsələn, Fransada turizm sənayesində artan davamlılıq ehtiyacları yeni kurikulumların və yeni pedaqoji yanaşmaların işlənib hazırlanmasına səbəb olmuşdur" (6). Deməli, turizm təhsili turizm sahəsində perspektivi daha da genişləndirmək və bu sahənin tərəqqisinə tələbi tarazlaşdırmaq məqsədi ilə hazırlanmalıdır. Turizm təhsili turizm müəssisələrində, sənayelərində insan resursları hazırlamaq üçün hazırlanmışdır. Bu səbəbdən bir çox universitetlər öz tədris proqramlarını və modullarını sənayenin ehtiyacları ilə əlaqələndirməyə və uyğunlaşdırmağa çalışıblar. Yəni əvvəlcə turizmin ehtiyaclarını təmin edən hansı peşə bacarıqlarına gərək duyulur, onlar araşdırılıb müəyyən olunmalı və bu istiqamətlərdə tələbələrin öz istedad və bacarıqlarına müvafiq olaraq onların özlərini inkişaf etdirməsinə yardımçı olmaq məqsədi daşımaqdır. Bunun üçün turizm təhsilində mövcud tədris prosesi aşağıdakı şəkillərdə dəyişdirilə və təkmilləşdirilə bilər.

- Mühazirələrdə keçirilən dərslərin seminarlarda təkrarən tələbələrdən soruşulması. Çünki artıq bu proses sürətlə inkişaf edən, ideyaların yarışdığı müasir dünyada insanın intellektual fəaliyyətinin, inkişafının qarşısını almaqla yeni fikirlərin, yanaşmaların üzə çıxmasında effektiv metod deyildir.
- Tələbələrin keçirilmiş dərslikləri sadəcə əzbərləmələri və heç bir yenilik qatmamaqları yerinə bir sıra fərqli mövzular ətrafında onların qarşısına seçilmiş, köklü suallar qoymaqla, onları tədqiqat işləri aparmağa yönləndirmək və o mövzularda yeni ideyalar irəli sürülməsini tələb etmək. Levi-Strossun "alim düzgün sualları qoyandır" yanaşması ilə çıxış etsək, düzgün sualların qoyuluşunun ona görə çox əhəmiyyət kəsb etdiyini deyə bilərik ki, digər metoddan fərqli olaraq bu metod tələbələri düşünməyə, araşdırmağa, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə və nəticədə yenilik gətirməli olduqları suallara cavablarda daha çox təkliflərin irəli sürülməsi ilə onları problemlərin həllinə inteqrasiya etməyə səbəb olacaq. Smestr sonunda bütün fənlər üzrə imtahanların müsabiqə mühitində təqdimat formasında keçirilməsi və qiymətləndirmənin də buna əsasən aparılması. Ən çox bəyənilən və məsələlərin həllində effektiv yollar irəli sürən müsabiqə qaliblərinə onları çalışmağa daha çox ruhlandıracaq hədiyyələrin, uğurlu şəxslərin təlimlərinə qatılmaq fürsətlərinin verilməsi və s. kimi tədbirlər təmin edilə bilər.
- Turizm təhsili alan tələbələrin birinci smestrdən başlayaraq, ən azı bir xarici dili doğru metod ilə maraqlı, zövqlü şəkildə mənimsənilməsinin təmin edilməsi. Çünki turizm sahəsində yazılan və dilimizə tərcümə edilməyən kitabları mütaliə etmək, bu sahədə inkişaf etmiş ölkələrin turizm sahəsində hansı addımları atdığını öyrənib, təhlil etmək və daha geniş dünya görüşünə sahib olmaq üçün dil biliyinin olması mütləqdir.
- Tələbələrin fərqli bacarıq və istedadlara malik olduğunu qəbul etmək, onları özlərinə uyğun olmayan istiqamətlərə məcbur etmək əvəzinə sahib olduqları keyfiyyətləri izhar etmək və məhz o sahələrdə yetişdirmək üçün işlərin görülməsi. Bunun üçün müəyyən günlərdə tələbələri öz peşəsinin peşəkarı olan məşhur yazıçı, şair, rejissor, mühəndis, texnoloq, şirkət və müəssisə rəhbərləri, vəzifəli şəxslər, dizaynerlər, İT mütəxəssisləri, psixoloqlar və s. digər uğurlu şəxslər ilə Azərbaycan bölgələrinə təhsil xarakterli gəzintilərin təşkil edilməsi, onların bu səyahətlərdə tələbələr ilə öz bilik və təcrübələrini paylaşması, tələbələrin fikirlərini dinləməsi və səmərəli fikir mübadiləsi aparılması tələbələrin öz içlərinə səyahət etmələrinə, şüurlarında yeni üfüqlərin açılmasına və maraqlarının fərqinə vararaq bir növ özlərini kəşf etmələrinə, daxili potensiallarını üzə çıxarıb inkişaf etdirmələrinə böyük töhfə verəcəkdir.

➢ İstedadı, qabiliyyəti artıq özünə məlum olmuş tələbələrin səriştələrini artırmaq üçün təhsil ilə yanaşı biliklərinin praktiki istifadəsi vacibdir. Səriştə bilik, bacarıq, təcrübə və qabiliyyəti özündə əks etdirən bir anlayışdır və "səriştə əsaslı təhsildə nəzəriyyə praktika ilə birləşdirilir, elmi-nəzəri biliklər əməli fəaliyyətdə tətbiq edilir". "Səriştə konkret fəaliyyət nəticəsində əldə edilir, konkret şəraitdə özünü büruzə verir və peşəkar fəaliyyət üçün başlıca meyardır. Səriştə əsaslı təhsil müasir dünyada geniş yayılmış ömür boyu təhsil üçün də vacibdir. Hər bir şəxsə konkret olaraq bir səriştənin aşılanmasında müasir təlim metodları, zəruri tədris vasitələrinin seçilməsi zəruridir (2).

**Nəqliyyat vasitələri və viza rejimi**

Coğrafi baxımdan Asiya, Avropa və Yaxın Şərq regionuna əlverişli mövqedə yerləşən Azərbaycan Respublikasında regionlara səyahətin artması üçün uçuşların, su və dəmir yolu infrastrukturlarının yetərli olmaması probleminin aradan qaldırılması mühüm əhəmiyyətə malikdir. Eyni zamanda ölkə daxilində müəyyən səyahət marşrutları ilə fərqli təkliflərin irəli sürülməsi ilə səyahət prosesini daha da maraqlı etmək və ölkəyə gələn turistlərin ilkin təyinat məntəqəsindən çıxmasını nəzərdə tutaraq onların şəhərlər, bölgələrarası gəzintisinin təmin edilməsi labüddür. Bunun üçün ölkədə şəhərlərarası yüksəksürətli qatarların və əksinə dağlıq, mənzərəli olan ərazilərdə isə nisbətən yavaş sürətlə hərəkət edən qatar yollarının inşası, mədəni turizm marşrutlarının yaradılması və təkmilləşdirilməsi, əsas tələb bazarları ilə birbaşa uçuşların təmin edilməsi, eləcədə avtomobil yolu şəbəkələrinin inkişaf etdirilməsi turistlərin daha rahat və əyləncəli səyahətini təmin edəcəkdir.

"Viza rəsmiləşdirilməsi proseslərinin və sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi" tədbirlərinin görülməsi ilə bir çox ölkələr kimi ciddi investisiya qoyuluşuna ehtiyac qalmadan əlçatanlığın yaxşılaşdırılması təmin edilə bilər. Məsələn, "Körfəz regionu ölkələrinin vətəndaşları üçün hava limanında viza rəsmiləşdirməsi təcrübəsinin tətbiqinə başlanıldıqdan sonra həmin ölkələrdən Azərbaycana gələn turistlərin sayında ciddi artım müşahidə edilmişdir. Bu trend Qərbdə yerləşən bir çox inkişaf etmiş turizm məntəqələrinə nisbətən yaxın məsafədə yerləşən Azərbaycan üçün belə bazar potensialının olduğunu göstərir". (1, s. 2016)

**Turizm infrastrukturunun dünya tələblərinə uyğun təkmilləşdirilməsi və genişləndirilməsi**

Turizmin fəaliyyətinin bir sahə kimi təşəkkülü və inkişafı maliyyə-iqtisadi göstəricilər sistemi ilə səciyyələnir (4, s. 159). Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamında müvafiq dövlət qurumlarına bir sıra tapşırıqlar verilmişdir. Bu tapşırıqlarda "qeyri-neft sektorunun sürətli inkişafına nail olmaq, iqtisadiyyatın səmərəliliyini, rəqabət qabiliyyətini artırmaq və innovasiya əsaslı irəliləyişini təmin etmək Azərbaycan dövlətinin iqtisadi siyasətinin prioritet istiqamətlərindən olduğu üçün qeyri-neft sektorunun prioritet sahələrindən olan turizm sənayesində görülmüş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda bu sektorun inkişafı üçün münbit şərait yaradılması və milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəldilməsi" özündə bir sıra əsas məqsədlər daşımışdır:

➢ "Azərbaycan Respublikasında turizm infrastrukturunun inkişaf etdirilməsi." Bu məqsədlə ilk öncə tədqiqat işləri aparılmalı və Azərbaycana coğrafi cəhətdən yaxın və uzaq olan ölkə əhalilərinin maraqlarının, tələb və istəklərinin nələr olduğu, səyahətlərində hansı ölkələrə hansı növ turizm məqsədi ilə üstünlük vermələri müəyyənləşdirildikdən sonra buna əsasən infrastruktur layihələri hazırlana bilər.

➢ Turizm xidmətlərinin davamlı və dayanıqlı inkişafı üzərində çalışaraq,"beynəlxalq

standartlara cavab verən turizm xidmətlərinin formalaşdırılması" işinin genişləndirilməsi ilə davamlı dəyişən və yenilənən dünya tələblərinə uyğun təkmilləşdirilməsi.

➢ "Bu sahənin qanunvericilik bazasının və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi". Hər hansı sahənin inkişafına təkan verən başlıca faktor "qanunvericilik bazasının" təkmilləşdirilməsidir və məhz qanunlardır ki, o sahənin tərəqqisinə bir növ icazə vermək funksiyası daşıyır.

➢ "Mövcud turizm potensialından istifadə imkanlarının genişləndirilməsi". Bildiyimiz kimi, Azərbaycan Respublikası hər bölgəsi, torpağı, dağları, təbiəti və s. digər xüsusiyyətləri ilə məqsədə uyğun, şüurlu şəkildə toxunulmağa və gözəlləşməyə hazır böyük turizm potensialına ev sahibliyi edir və yalnızca insan və digər resurslardan səmərəli istifadə edərək bu potensialı doğru şəkildə formalaşdırıb dünya insanlarına təqdim etmək olar.

**Turizm sahəsində idarəetmə**

İdarəetmə – qarşıya qoyulmuş məqsədə nail olmaq naminə resursların səfərbəyliyə alınması və səmərəli istifadə edilməsi, ictimai əlaqə, qayda və nəzarətin təmin edilməsinə yönəldilmiş insan fəaliyyətidir. İdarəetmənin köməyi ilə maddi imkanlar, sosial-iqtisadi münasibətlər və digər vasitələr elə təşkil edilir ki, obyektə şüurlu təsir edilərək nəzərdə tutulan məqsədə çatmaq mümkün olur. İdarəetmənin doğru təşkil edirməsi nəticəyə aparan əsas faktorlardan biridir. Bunu F.Teylorun baxışında da aydın görmək olar ki, o "idarəetməyə nə etmək lazım olduğunu və bunu ən yaxşı və ucuz üsulla etməyi dəqiq bilmək məharəti kimi" yanaşırdı. Turizmin idarəçiliyinin müasir şəraitdə təkmilləşmə istiqamətlərinə gəldikdə deyə bilərik ki, turizmin idarə edilməsi kompleks sistemli məqsədyönlü fəaliyyət dairəsi olub, struktur islahatların tərkib hissəsidir. Turizm idarəetmə obyekti olaraq turizmin məqsədinə, onun əsas təşkilati quruluşuna və kadr potensialına əsaslanır. Turizm idarəçiliyi turistlərin motivasiyasına əsasən qurulur (3, s. 65). Belə ki, turizm müəssisələri rəhbər və işçi heyətinin qurulması, vəzifələr və görülən işlərin nəticəsində əldə ediləcək məqsədlərin müəyyənləşdirilməsi və nəzarət qaydalarının nizamlanması və təmin edilməsində müvafiq qaydada idarəetməyə ehtiyac duyur. A.Marşalın qeyd etdiyi kimi, "idarəetməyə əmək, torpaq və kapitalla bərabər istehsalın ayrıca amili kimi baxmaq lazımdır" (7). Turizm sahəsində idarəedici vəzifəyə yalnızca idarəetmə qabiliyyəti olan və bununla yanaşı, bir sıra bilik və bacarıqları özündə cəmləşdirən şəxslərin seçimi isə bunun ilk addımıdır.

**Nəticə**

Azərbaycan Respublikasının yeraltı və yerüstü sərvətləri ilə zəngin olması heçdə bu ehtiyatların tükənməz olması anlamına gəlmir. Deməli, turizmin inkişafına diqqət edilməsi kimi bu resurslardan doğru və səmərəli qaydada istifadə edilməsi də olduqca labüd vəzifədir. Bununla bağlı "Azərbaycan Respublikasında 2007-2016-cı illər üçün turizmin inkişafına dair" qəbul edilmiş "Dövlət Proqramında" əsas məqsəd olaraq Turizm haqqında Qanunda, habelə digər müvafiq normativ-hüquqi aktlarda nəzərdə tutulmuş müddəalarda digər məsələlər ilə yanaşı, "turizm sərvətlərindən səmərəli istifadə olunması" məsələsi də yer almışdır. Əslində turizmin inkişaf etdirilməsi işinin düzgün təşkil edilməsi ilə turistlərin səyahətləri üçün məhz Azərbaycanı seçməsinə səbəb olacaq tədbirlərin görülməsi, imkanların genişləndirilməsi və bunun insanlara necə də böyük fayda gətirəcəyinin dərk edilməsinin özü belə bu sərvətlərin əlverişli tükədilməsinə maraq yaradacaqdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet saytı, Azərbaycan Respub-likasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi, 6 dekabr 2016 (https://president.az/az/articles/view/22134)
2. Harvardlı alim "Yeni çağırışlar" proqramında təcrübələrini bölüşüb (https://muallim.edu.az/news.php?id=15086)
3. Süleymanov E. "Azərbaycanda turizmin inkişafının sosial-iqtisadi rolu" mövzusunda magistr dissertasiyası, 2016 (https://unec.edu.az/application/uploads/2016/03/Suleymanov_Elvin.pdf)
4. Qafarov N., Turizmin İqtisadiyyatı, Bakı: "Kooperasiya nəşriyyatı", 2019, 583 s. (https://ebooks.az/book_KL7yjbAC.html)
5. Malihah E., Setiyorini D. Tourism Education and Edu-Tourism Development: Sustainable Tourism Development Perspective in Education 1, Presented at The 1st International Seminar on Tourism (ISOT), Bandung 27-28 October 2014 Eco-Resort and Destination Sustainability: Planning, Impact, and Development (https://www.academia.edu/33207902/Tourism_Education_and_Edu_Tourism_Development_Sustainable_Tourism_Development_Perspective_in_Education_1)
6. Seraphin H., Mamadou B., Fyall A., Vanessa G.B. Tourism education in France and sustainable development goal 4 (quality education) Worldwode Hospitality and Tourism Themes, 2021 (https://www.emerald.com/insight/content/doi/10.1108/WHATT-08-2020-0083/full/html)
7. http://economics.com.az/index.php/kitabxana/tan-nm-iqtisad-lar/item/1555-alfred-marshall.html

***Резюме***

***Рамиль Шахгусейнли***

***Совершенствование и расширение инструментов государственной политики в сфере туризма в Азербайджанской Республике***

В статье анализируется разработка государственной политики и стратегических дорожных карт, связанных с развитием сферы туризма в Азербайджане. В этом направлении рассматривается возможность изучения международного опыта и применения положительных тенденций в Азербайджане. Тот факт, что на землях Азербайджанской Республики создана благоприятная туристическая среда, побуждает нас к более решительным шагам. Тот факт, что будущее выглядит очень радужным, а подготовка и меры, предпринимаемые в данный момент, могут привести нас к этому результату, выдвигает на первый план важность изучения того, какие средства необходимы для развития этой области. Принимая во внимание все эти факторы, возможности и возможности, существует большая потребность в совершенствовании и расширении инструментов государственной политики в этой сфере нашей страны, имеющей значительный потенциал в сфере туризма.

Несмотря на то, что в последнее время в Азербайджане были предприняты обширные меры в этой области, существует необходимость в дальнейшем наращивании этих мер. Потому что эта сфера требует больших вложений в образовательные программы и подготовку квалифицированных кадров, сочетающих знания и навыки во многих областях в соответствии с требованиями современной эпохи. Азербайджанская Республика, особенно быстро развивающаяся в последнее время и о которой часто говорят во всем мире, добилась значительных успехов в сфере туризма, а также в социальной и политической областях. Главной основой этого развития были, конечно же, законы, государственные программы и стратегические дорожные карты Азербайджанской Республики, которые обеспечили направление и возможности для роста туризма в нашей стране и обеспечили его стабильность. Однако наши земли, освобожденные от оккупации, являются одной из главных тем, над которой мы должны задуматься и создать основу для большого развития будущего туризма. Поскольку даже процесс освобождения нашей земли от рук врага привлек к себе

внимание всего мира, разница между периодом оккупации и периодом после освобождения от оккупации вызовет больший интерес у людей.

***Ключевые слова:*** *туризм, Азербайджан, управление, государственная политика, стратегическая дорожная карта*

***Summary***

***Ramil Shahhuseynli***

***Improvement and Expansion of State Policy Instruments in the Field of Tourism in the Republic of Azerbaijan***

The article analyzes the development of the state policy and strategic road maps related to the development of the tourism sector in Azerbaijan. In this direction, the possibility of studying international experience and applying positive trends in Azerbaijan is considered. The fact that the lands of the Republic of Azerbaijan have a favorable tourism environment encourages us to take more decisive steps. The fact that the future looks very bright and the preparations and measures taken at the moment can bring us to this result brings to the fore the importance of learning what are the necessary means for the development of this field. Taking into account all these factors, opportunities and possibilities, there is a great need to improve and expand the state policy tools in this field of our country, which has significant potential in the tourism sector.

Despite the fact that Azerbaijan has recently taken extensive measures in this area, there is a need to further increase these measures. Because this area requires large investments in educational programs and the training of qualified personnel who combine knowledge and skills in many areas in accordance with the requirements of the modern era. The Republic of Azerbaijan, which has shown rapid development especially in recent times and is often talked about all over the world, has made significant progress in the field of tourism as well as in social and political fields. The main foundation of this development was, of course, the laws, state programs and strategic road maps of the Republic of Azerbaijan, which provided the direction and opportunities for the growth of tourism in our country and ensured its stability. However, our lands freed from occupation are one of the main topics that we should think about and create a basis for the great development of future tourism. Because even the process of liberating our land from the enemy's hands has attracted the attention of the whole world, the difference between the period of occupation and the period after liberation from occupation will attract more people's interest.

***Keywords:*** *tourism, Azerbaijan, management, state policy, strategic road map*

Şöbə redaktoru s.e.d., prof. Nəsirli Elman Xudam oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

.